# DAĞLARA QAR YAĞDI...



## Bu, qışa ciddi hazırlaşan göygöllüləri qorxutmur

***❒ Qarlı-şaxtalı günlər, necə deyərlər, qapını döyməkdədir. Artıq ətraf dağlara qar düşüb. Dağlıq və dağətəyi rayonlarda qışın soyuq nəfəsi aydın hiss olunur. Son günlər yağan aramsız yağışlar, güclü külək və sel insanları ilkin sınağa çəkib, hətta bir sıra bölgələrə ciddi ziyan da vurub.***

Bəs, yerlərdə payız-qış mövsümünə hazırlıq tədbirləri necədir? Əhalinin elektrik enerjisi, qaz və su ilə təminatı sahəsində hansı tədbirlər görülüb? Payız-qış mövsümü ilə bağlı təxirəsalınmaz vəzifələr nədən ibarətdir, həlli vacib olan çətinlik və problemlər varmı? Göygöl Rayon İcra Hakimiyyəti Başçısı yanında Şuranın bu məsələlərə həsr olunmuş ayrıca iclasında bütün bunlarla bağlı geniş müzakirə aparılmış, müvafiq tədbirlər müəyyənləşdirilmişdir. Toplantıda ərazidəki idarə, müəssisə və təşkilat rəhbərlərinin hesabatları dinlənilmiş, mövcud vəziyyət ətraflı təhlil edilmiş, qeyd olunan nöqsan və çatışmazlıqların tezliklə aradan qaldırılması üçün vəzifəli şəxslərə konkret tapşırıqlar verilmişdir.

Məsələyə belə ciddi və əhatəli yanaşılması heç də təsadüfi deyil. Göygöl rayonu, əsasən, dağlıq və dağətəyi ərazidə yerləşir. Deməli, burada payız-qış mövsümünə vaxtında hazırlıq görülməsi daha çox vacibdir. Elə ona görə də bu mühüm kampaniyaya hazırlıq tədbirləri, əslində, yay aylarından başlanmışdır. Şura iclasında isə, ilk növbədə, təhsil, səhiyyə və mədəniyyət müəssisələrində payız-qış mövsümünə hazırlıq tədbirləri nəzərdən keçirilmişdir.





Qeyd edildiyi kimi, hazırda rayonda 1 texniki-təbiət fənləri təmayüllü lisey, 38 tam orta, 10 ümumi orta və 1 ibtidai məktəb, 2 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir. Göygöl şəhərindəki 6 məktəb, Üçtəpə, Pənahlılar, Aşıqlı, Xaqani, Şəhriyar, Balçılı, Hacıməlik, Dozular, Yeni Qızılca, Topalhəsənli, Əliəhmədli, Mollacəlilli, Zurnabad, Qızılca, Firuzabad, Qusarqara, Nadil, Əlmədətli, Xasabağ, Bəhrəmbağ kənd orta və 8 Mart əsas məktəbləri mərkəzləşmiş istilik sistemi, elektrik, qaz və neftlə, qalan təhsil ocaqları isə odunla qızdırılır.

Bütün təhsil müəssisələrində payız-qış mövsümünə hazırlıqla bağlı zəruri işlər görülmüş, məktəb binalarında pəncərə şüşələri təzələnmiş, sinif otaqlarındakı sobalar və borular saz vəziyyətə gətirilmişdir. Uşaq tərbiyə müəssisələrinin dam örtüklərində, qapı və pəncərələrində, elektrik naqillərində çatışmazlıqlar aradan qaldırılmışdır.

Rayon Səhiyyə Şöbəsi üzrə qışa hazırlıq üçün bir sıra tədbirlər görülmüşdür. Mərkəzi Rayon Xəstəxanasının yeni binasında qazanxana sazlanaraq işə salınmış, camaşırxananın kanalizasiya xətti təzələnmişdir. MRX-nin bütün obyektlərində elektrik xətlərinə baxış keçirilmiş, nasaz naqillər dəyişdirilmişdir. Çaykənd və Balçılı kənd sahə xəstəxanalarının mərkəzləşdirilmiş ocaqxanalarında cari təmir işləri aparılmış, soba yanağı tədarük edilmiş, 10 kənd həkim məntəqəsinin və 23 tibb məntəqəsinin qızdırılması üçün lazımi qədər odun alınmışdır.

Şəmkir Regional Mədəniyyət İdarəsinin Göygöl rayonu üzrə nümayəndəliyində 41 kitabxana, 19 klub müəssisəsi, 2 muzey və 2 musiqi məktəbi fəaliyyət göstərir. Mərkəzi kitabxana sisteminin inzibati binası, uşaq və xidmət şöbələrinin təbii qazla qızdırılması təmin edilmişdir. Rayon mədəniyyət evi, tarix-diyarşünaslıq muzeyi, Heydər Əliyev Mərkəzi, Aşıq Şəmşir adına uşaq musiqi məktəbi isə kombi sistemi ilə qızdırılır. Kənd mədəniyyət evlərinə və klublara dizel yanacağı verilmişdir.

Rayon Gigiyena və Epidemiologiya Mərkəzində də cari payız-qış mövsümünə hazırlıqla bağlı bir sıra tədbirlər həyata keçirilmişdir. Ayrı-ayrı şöbələr üzrə yanğın təhlükəsizliyi üçün məsul şəxslər müəyyənləşdirilmiş, bütün kommunikasiyaların sazlığı yoxlanılaraq işlək vəziyyətə gətirilməsi təmin olunmuşdur.

Hazırda rayon üzrə 13 min 671 mənzil, 202 təşkilat təbii qazla təmin olunmuşdur. Göygöl Qaz İstismarı Sahəsi müxtəlif istiqamətlərdə yeni qaz xətləri və avadanlıqlar quraşdırmışdır. 92 tənzimləyici qurğuya, 323 siyirtməyə baxış keçirilmiş, qaz xətlərində təmir-bərpa işləri aparılmışdır. Qaz təchizatının yaxşılaşdırılması və yeni yaşayış massivlərinin qazlaşdırılması ilə əlaqədar Qızılca, Yeni Qızılca, Kərəmli, Şəhriyar, Çaykənd kəndlərinə yeni qaz xətləri çəkilmişdir. Kənd və qəsəbələrdə istismar müddəti bitmiş mexaniki qaz sayğacları yeni tipli cihazlarla əvəz olunmuşdur. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Şura iclasında qeyd edildiyi kimi, qışa hazırlıqla bağlı tədbirlərdən danışarkən, şübhəsiz, əsas ağırlıqlardan biri elektrik təsərrüfatının üzərinə düşür. Bu istiqamətdə rayonda bir sıra əsaslı tədbirlər işlənib həyata keçirilmişdir. Göygöl şəhərində, Çaylı, Pənahlılar, Xəqani, Aşıqlı, Yeni Zod kəndlərində, Hacıməlik qəsəbəsində yeni dayaqlar basdırılmış, SIP kabel xətləri çəkilmişdir. 48 müxtəlif gücdə transformator təmir edilmişdir.

Qeyd edilən toplantıda payız-qış mövsümünə hazırlıqla əlaqədar görülüb başa çatdırılmış bütün bu işlər, həyata keçirilmiş tədbirlər qənaətbəxş sayılmış, bununla yanaşı, xidmət təşkilatlarının, məsul şəxslərin diqqəti həllini gözləyən məsələlərə, aşkar edilən nöqsanların dərhal aradan qaldırılmasına yönəldilmişdir. Belə bir yekdil fikir ifadə edilmişdir ki, müvafiq idarə, müəssisə və təşkilat rəhbərləri payız-qış mövsümünün uğurla başa çatdırılmasını, əhalinin vacib sosial ehtiyaclarına vaxtında və həssaslıqla əməl olunmasını təmin etməlidirlər.

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***